

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 26 (23.668)

9 fevral 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Baş Prokurorluğunun paytaxtın Binəqədi rayonu ərazisində yeni inzibati bina kompleksinin açılışında iştirak edib.

Yeni inzibati bina ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verən Baş prokuror Kamran Əliyev bildirib ki, dörd korpusdan ibarət kompleksdə Baş Prokurorluğun altı idarəsi və Elm-Tədris Mərkəzi fəaliyyət göstərəcək. Kompleksdəki bütün otaqlar müasir informasiya-kommunikasiya qurğuları ilə təchiz olunub. Yeni inzibati binada yaradılmış müasir şərait prokurorluq orqanları əməkdaşlarının daha səmərəli və məhsuldar fəaliyyətini təmin edəcək. Eyni zamanda vətəndaş məmnunluğunun təmin olunması işi də yeni kompleksdə müvafiq standartlara və müasir formaya uyğunlaşdırılıb.

Prezident İlham Əliyev kompleksin inzibati binasında yaradılan və 44 günlük Vətən müharibəsinə həsr edilmiş tarixi-memorial qalereya ilə tanış olub. Dövlətimizin başçısına səyyar kriminalistik laboratoriyaların quraşdırıldığı avtomobillər barədə də məlumat verilib. Bildirilib ki, avtomobillərdə quraşdırılmış batareyaların köməyi ilə mühərriklər işə salınmadan 1,5-2 saat ərzində avtonom rejimdə hadisə yerini, eləcə də istintaq hərəkəti aparılan ərazini işıqlandırmaq mümkündür. Müasir texnika və avadanlıqla təchiz edilən bu cür avtomobillər MDB məkanında yalnız Azərbaycandadır.

## Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2021-ci ildə mühüm tarixi-siyasi əhəmiyyətə malik olan Qars müqaviləsinin imzalanmasının 100 illiyi tamam olur.

1921-ci il oktyabrın 13-də Azərbaycan, Ermənistan və Gürcüstan sovet sosialist respublikaları ilə Türkiyə arasında imzalanmış Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunvericilik orqanlarında təsdiq edilmiş və həmin ilin sentyabrın 11-dən qüvvəyə minmişdir. Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, o cümlədən görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, Türkiyə dövlətinin məsələyə ədalətli yanaşması nəticəsində bu müqavilə Naxçıvanın ərazisi və bu ərazinin beynəlxalq müqavilə ilə qorunan toxunulmazlıq hüququnu təsbit etmişdir. 20 maddə və 3 əlavədən ibarət olmaqla, müddətsiz imzalanan müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın statusu ilə bağlıdır. Həmin maddəyə əsasən tərəflər Naxçıvanın muxtar respublika kimi Azərbaycanın tərkibində qalması məsələsində razılığa gəlmişlər.

Tarixi proseslərin sonrakı inkişafının nəticəsi olaraq Naxçıvan 1921-ci ilin martında Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü ilin iyununda Naxçıvan diyarı, 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-də isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini daim yüksək qiymətləndirərək demişdir: ***“Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir”.***

Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələdir. Bu tarixin öyrənilməsi və gələcək nəsillərə çatdırılması isə bütün dövrlər üçün aktual və vacibdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qars müqaviləsinin 100 illiyi Naxçıvan Muxtar Respublikasında qeyd edilsin.

2. “Qars müqaviləsinin 100 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 fevral 2021-ci il*

## 2021-ci il üçün elm və mədəniyyət sahələrində Naxçıvan Muxtar Respublika mükafatlarının verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2021-ci il üçün elm və mədəniyyət sahələri üzrə Naxçıvan Muxtar Respublika mükafatları aşağıdakı şəxslərə verilsin:

**Elm sahəsi üzrə:**

Məmmədova Mətanət Elmixan qızı – “Naxçıvan blokadası” ikicildliyi kitabına görə

**Mədəniyyət sahəsi üzrə:**

Alıyev Nizami İsgəndər oğlu – “Gəmiqaya qayaüstü rəsmləri” kitabına görə

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 fevral 2021-ci il*

## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətlərinə görə:

Əliyeva Səbahət Əli qızı

Nəcəfova Tərlan Məhəmməd qızı

Zeynalova İradə İsmayıl qızı – **“Əməkdar müəllim”** fəxri adı ilə;

Tarverdiyev Məhərrəm Novruz oğlu – **“Əməkdar həkim”** fəxri adı ilə;

Novruzov Elxan Yunis oğlu – **“Əməkdar dövlət qulluqçusu”** fəxri adı ilə;

Xıdırov Əhliman Mehman oğlu – **“Əməkdar hüquqşünas”** fəxri adı ilə;

Rzayeva Xoşqədəm Hüseyn qızı – **“Əməkdar tibb işçisi”** fəxri adı ilə;

Hüseynova Mehparə Səfər qızı – **“Əməkdar kənd təsərrüfatı işçisi”** fəxri adı ilə;

Mehdiyev Samir Əyyub oğlu – **“Rəşadətli əməyə görə”** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 fevral 2021-ci il*

## Naxçıvanda Vətən müharibəsi iştirakçıları ilə görüş olub

### *Yeni yaradılan hərbi hissələrə döyüş bayraqları təqdim edilib*

Fevralın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Vətən müharibəsi iştirakçıları ilə görüşmüş, yeni yaradılan hərbi hissələrə döyüş bayraqlarını təqdim etmişdir.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Azərbaycan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov şəxsi heyəti salamlamışdır.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hərbi hissələrə döyüş bayraqlarının verilməsi ilə bağlı təqdimatlarını oxumuşdur.

Ali Məclisin Sədri yeni yaradılmış hərbi hissələrə döyüş bayraqlarını təqdim etmişdir.

Ali Məclisin Sədri çıxış edərək demişdir: Dövlətin qüdrəti onun ordusunun qüdrəti ilə ölçülür. Güclü ordu müstəqil dövlətçilik, sabitlik və inkişaf deməkdir. ***“Azərbaycan təkcə bu gün yox, gələcəkdə də torpaqlarını, dövlət müstəqilliyini qorumaq üçün güclü orduya malik olmalıdır”***, – deyən ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə ordu quruculuğunu dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşdirmişdir. Dahi şəxsiyyət ötən əsrin 70-ci illərində ordu quruculuğuna ixtisaslı hərbçi kadrların hazırlanması ilə başlamış, 90-cı illərin əvvəllərində Naxçıvanda ilk milli ordu qurumu, ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycan Silahlı Qüvvələrini yaratmışdır. Ümummilli liderimiz Heydər Əliyev ordunun vacibliyini həm də belə əsaslandırırdı: ***“Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımız azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik”.*** Ulu öndərin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzü bərpa etmiş, torpaqlarımız işğaldan azad olunmuş, böyük tarixi qələbə qazanılmışdır. Bu qələbənin qazanılmasında şəhidlərimiz və yaralananlar da olmuşdur.

Ali Məclisin Sədri yaralanan bütün hərbi qulluqçulara şəfa diləmiş, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Ali Məclisin Sədri demişdir: Vətən müharibəsində Naxçıvandan olan hərbçilər də iştirak edərək şücaət, peşəkarlıq və vətənpərvərlik göstəriblər. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Naxçıvanlılar İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın***

Ardı 2-ci səhifədə





***azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər”.*** İkinci Qarabağ müharibəsində hərbçilərimizin göstərdikləri qəhrəmanlıqlar ölkəmizdə və muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin nəticəsidir. Bu illər ərzində muxtar respublikada ordu quruculuğu əsas məsələlər sırasında saxlanılmış, 288 hərbi obyekt tikilərək



və ya yenidən qurularaq istifadəyə verilmişdir. Naxçıvanda motoatıcı briqadadan Əlahiddə Ümumqoşun Orduya qədər böyük inkişaf yolu keçilmiş, yeni hərbi hissələr yaradılmış, ən müasir silah və texnika təminatı həyata keçirilmiş, müdafiə təhlükəsizliyi təmin olunmuşdur. Muxtar respublikada hərbi infrastrukturun möhkəmləndirilməsi ilə yanaşı, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılmışdır. Naxçıvan şəhərində, rayon mərkəzlərində müasir yaşayış binaları, hərbi şəhərciklər tikilərək istifadəyə verilmiş, zabit-gizir ailələri mənzillərlə təmin olunmuşlar.

“Vətənpərvər və peşəkar şəxsi heyət olmadan nizami ordu yaratmaq mümkün deyil”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, ordu quruculuğu sahəsində qazanılan ən böyük uğurlardan biri də peşəkar və vətənpərvər şəxsi heyətin formalaşdırılmasıdır. Keçirilən birgə təlimlər, təşkil olunan kurslar, ideoloji işin düzgün qurulması, müasir təlim-tədris komplekslərinin istifadəyə verilməsi hərbi qulluqçuların peşəkarlığını xeyli artırmışdır. Ölkəmizdə dövlət-xalq-ordu birliyi vardır. İnsanlar muxtar respublika ərazisindəki ordu birləşmə və hissələrə güvənərək rahat yaşayır, təsərrüfatlarını genişləndirir, inkişafa öz töhfələrini verirlər. İkinci Qarabağ müharibəsində muxtar respublika sakinlərinin səfərbərlik tədbirlərini böyük ruh yüksəkliyi ilə qarşılaması, təsərrüfatlarında yetişdirdikləri məhsulları hərbi hissələrə aparması, ordumuzla həmrəylik nümayiş etdirməsi də xalq-ordu birliyinin nəticəsidir. Ölkəmizdə şəhid ailələrinə, müharibə veteranlarına və Vətənin müdafiəsi zamanı sağlamlıq imkanları məhdudlaşmış şəxslərə qayğı da həyata keçirilən sosial siyasətin əsas istiqamətidir.

Ali Məclisin Sədri demişdir: Hər bir hərbi qulluqçu unutmamalıdır ki, o həm ərazi bütövlüyümüzün, həm də ölkəmizin təhlükəsizliyinin təminatçısıdır. Ona görə də hərbi xidmət bundan sonra da nümunəvi təşkil olunmalı, nizam-intizama ciddi əməl edilməli, peşəkarlıq daha da artırılmalıdır. Müdrik fikirlərin birində deyilir ki, torpaq silahla deyil, milli ruhla qorunduğu zaman Vətən olur. Vətən müharibəsində Azərbaycanı qələbəyə aparan da milli ruh, milli iradə və vətənpərvərlik oldu. Bu səbəbdən də vətənpərvərlik tərbiyəsi daim diqqətdə saxlanılmalı, şəhidlərimizin, Vətən müharibəsi iştirakçılarının döyüş yolu gənc hərbi qulluqçular üçün nümunə olmalıdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***ordunun qüdrəti təkcə silahda deyil, onun gücündə deyil. Ordunun əsas qüdrəti hər bir əsgərin, zabitin xalqına, torpağına, vətəninə sədaqətindədir.*** Vətənə sədaqət yolu isə ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev siyasi yoluna sədaqətdən keçir.

Ali Məclisin Sədri bu yolda şəxsi heyətə uğurlar arzulamışdır.

“Vətən Müharibəsi Qəhrəmanı” adı və “Şuşanın azad olunmasına görə” medalı ilə təltif olunan mayor Elnur Şirinov demişdir: “Müstəqil, suveren Azərbaycan dövlətinin yaradıcısı ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş milli ordumuzun ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə uzun illər işğal altında qalan torpaqlarımızı azad etməsi dövlətimizin uğurlu siyasətinin nəticəsidir. Ali Məclisin Sədri tərəfindən Naxçıvanda ordu quruculuğuna göstərilən diqqətin nəticəsidir ki, qədim diyarımızın müdafiəsi etibarlı şəkildə təmin edilmişdir. 2017-ci il oktyabrın 18-də ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi parad gücümüzü düşmən qarşısında bir daha nümayiş etdirdi. Xüsusi təyinatlı bölmələrin cəlb edildiyi “Kəşfiyyat”, “Dağçılıq”, “Snayper” hazırlığı, eləcə də zabit təkmilləşdirmə kursları, Naxçıvan Muxtar Respublikasında təşkil olunan Qarnizon Xüsusi Təyinatlı birləşmə və hərbi hissələrinin, eləcə



də 2019-2020-ci illərdə Türkiyə Respublikasının Silahlı Qüvvələri ilə birgə keçirilmiş “Sarsılmaz Qardaşlıq” döyüş atışlı taktiki təlimlərə cəlb olunan xüsusi təyinatlılar yüksək vətənpərvərlik hissi ilə bilik və bacarıqlarını, əldə etdikləri praktik təcrübəni 44 günlük Vətən müharibəsində əməliyyata başladıqları ilk anda böyük ustalıqla tətbiq edərək düşmənin döyüş əzmini qırdılar. Bu gün xüsusi təyinatlı bölmələrin şəxsi heyəti Ali Məclis Sədrinin diqqət və qayğısını bir daha hiss edir. Hərbi hissəmizin müasir qərargah binasının, hərbi qulluqçuların döyüş hazırlığının inkişaf etdirilməsi üçün yaradılan idman şəhərciyinin və asudə vaxtın səmərəli keçirilməsi üçün istirahət parkının istifadəyə verilməsi bizi çox sevindirir”. Elnur Şirinov göstərilən qayğıya görə xüsusi təyinatlılar adından minnətdarlıq etmişdir.

Vətən müharibəsi iştirakçısı, “Döyüşdə fərqlənməyə görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif olunan əsgər Fəxri Qazıbəyov demişdir: “Ölkəmizdə, eləcə də doğma Naxçıvanımızda ordu quruculuğu daim diqqət mərkəzində olmuşdur. Ali Baş Komandanın etimadını doğruldan Əlahiddə Ümumqoşun Ordunun mərd, cəsarətli əsgərləri Ali Məclis Sədrinin rəhbərliyi altında 2018-ci ilin may ayında Şərur rayonunun Günnüt kəndini və muxtar respublikanın 11 min hektardan artıq ərazisini düşməndən azad etmişdir. Azərbaycan Milli Ordusunun ötən ilin sentyabr ayında düşmənə qarşı başladığı əks-hücum əməliyyatlarında Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə iştirak etmiş və qələbə sevincini yaşamışlar. Hərbi hissəmizin şəxsi heyəti öncə Qızılqayada qaldırdığı üçrəngli bayrağımızı Vətən müharibəsində əzəmətli Şuşa qalasında da qürurla dalğalandırdı. Qeyd etmək istəyirəm ki, Vətən müharibəsində iştirak etmək üçün Qarabağa yollanarkən bu barədə ailələrimizə heç bir məlumat vermədik. Çünki yaxşı dərk edirdik ki, biz getsək də, burada qalan ailə üzvlərimiz diqqət və qayğı ilə əhatə olunacaqdır. Buna görə də döyüş əməliyyatlarında ailələrimiz üçün heç bir narahatlıq keçirmədən tapşırıqları uğurla yerinə yetirib, qələbəyə doğru irəlilədik”.

Ali Məclisin Sədri Vətən müharibəsi iştirakçılarını qiymətli hədiyyələrlə mükafatlandırmışdır.

Orkestrin müşayiəti ilə şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçmişdir.

Sonra xatirə şəkli çəkdirilmişdir.

Ali Məclisin Sədri yeni yaradılan hərbi hissələrə döyüş bayraqlarının verilməsi münasibətilə şəxsi heyəti təbrik etmiş, xidməti fəaliyyətlərində uğurlar arzulamışdır.

## Qərargah binası, təlim meydanı və Türkiyə-Naxçıvan Dostluq Parkı istifadəyə verilib






Fevralın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün istifadəyə verilən yeni qərargah binasında və Türkiyə-Naxçıvan Dostluq Parkında yaradılan şəraitlə tanış olmuşdur.

Əlahiddə Ümumqoşun Ordu komandanı,

*Ardı 3-cü səhifədə*





general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Məlumat verilmişdir ki, ümumi sahəsi 3600 kvadratmetr olan ərazidə inşa edilən 3 mərtəbədən ibarət qərargah binasında növbətçi, silah, əməliyyat, tibbi, tədris və digər xidməti otaqlar, yeməkxana, qazanxana vardır. Binanın həyətində xüsusi təyinatlılar üçün təlim meydanı hazırlanmışdır.

Hərbi hissənin ərazisində Türkiyə-Naxçıvan Dostluq Parkı yaradılmışdır. Ümumi sahəsi 17 min kvadratmetr olan istirahət parkı salınmışdır. Parkda 75 müxtəlifölçülü oturacaqlar və 38 müxtəlif heykəl quraşdırılmış, müxtəlif dekorativ ağac və güllər əkilmişdir. Parkda ümumi sahəsi 114 kvadratmetr olan fəvvarə tikilmiş, bayrağı özündə əks etdirən 9 metr hündürlüyündə alov maketi hazırlanmışdır.

Sonra xatirə şəkli çəkdirilmişdir.

Ali Məclisin Sədri demişdir: Türkiyə Respublikası həmişə Azərbaycanın və onun ayrılmaz



tərkib hissəsi olan Naxçıvanın yanında olmuşdur. Qazanılan uğurlarda Türkiyə Silahlı Qüvvələrinin də böyük rolu vardır. Buna görə də Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə ehtiram və hörmətimizi bildiririk. Bu park İkinci Qarabağ müharibəsində Türkiyə-Azərbaycan birliyinə xatirə olaraq yaradılıb və buraya Türkiyə-Naxçıvan Dostluq Parkı adı verilib. Bu da gələcək nəsillər üçün nümunə olacaqdır.

Ali Məclisin Sədri Əlahiddə Ümumqoşun Ordunun təlimlərdə iştirak etməsinə şərait yaratdığına görə Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitlərinə, ordunun hazırlığı və tapşırıqların düzgün icrasına görə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun komandanlığına, eləcə də şəxsi heyətə təşəkkürünü bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası – 97*

# Naxçıvan Muxtar Respublikasının yaradılması tarixi nailiyyətdir

***Naxçıvan Muxtar Respublikasının yaradılmasından 97 il ötür. Muxtar respublikanın yaradılması Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb etmiş və xalqımızın həyatında əlamətdar hadisəyə çevrilmişdir.***

XX əsrin 20-ci illərində Naxçıvan diyarı çox çətin və mürəkkəb hadisələrlə qarşılaşmış, Zəngəzurun itirilməsi ilə Azərbaycandan ayrı düşmüş, məkrli düşmənimiz olan erməni millətçiləri Naxçıvanı tutmaq üçün hər cür vasitələrə əl atmışlar. Lakin qəhrəman naxçıvanlılar bölgənin işğal edilməsinə yol verməmiş, onu qoruyub saxlamış və Azərbaycanla birləşməsinə nail olmuşlar.

Hadisələri çətinləşdirən ən mühüm cəhətlərdən biri də bir sıra iri kapitalist dövlətlərinin tutduqları mövqe, Naxçıvan diyarının Ermənistana verilməsi üçün müxtəlif yollardan istifadə etmələri idi. Bu dövlətlərdən biri general-qubernatorluq yaratmaqla, başqa birisi bitərəf, yaxud neytral zona formalaşdırmaqla, üçüncüsü isə torpaqları güzəşt etməklə Ermənistanı sovetləşdirmək yolunu tuturdular. Ermənilərin fikirləri bu idi ki, Cənubi Qafqazda inzibati ərazi bölgüsü aparılarkən onlara az pay düşmüşdür. Lakin başa düşmək istəmirdilər ki, ərazilərin əsl sakinləri və sahibləri azərbaycanlılardır.

XX əsrin 20-ci illərində bolşevik Rusiyasının da məqsədi başqa dövlətlər kimi, Naxçıvanı Ermənistana vermək, bununla Türk dünyasının bir-biri ilə əlaqəsini kəsmək idi. Erməni daşnakları isə yaranmış şəraitdən istifadə edərək Azərbaycanın bir sıra torpaqlarını "böyük Ermənistan"a qatmaq siyasəti aparmışlar. Onların bu niyyətlərində Naxçıvanın zəbt edilməsi ilk planda dururdu. Ermənilər açıq-aşkar bildirirdilər ki, "Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz".

Qəhrəman naxçıvanlılar erməni basqınlarını mərdliklə cavablandırmış, məkrli düşmənlərin niyyətlərinin reallaşmasına imkan verməmişlər.

Naxçıvanlıların qəhrəmanlığından bəhs edən Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli Azərbaycan parlamentindəki çıxışında demişdir: *"İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar".*

Ermənistanın Naxçıvana olan iddialarının artdığı bir dövrdə – 1918-ci il iyulun 7-də Kazım Qarabəkir Paşanın başçılığı ilə türk ordusu Naxçıvana gəldi və erməni özbaşınalığının qarşısını almaq üçün yerli əhaliyə kömək göstərdi. Lakin Birinci Dünya müharibəsində məğlub olduqlarına və Mudros müqaviləsinin şərtlərinə görə, türk qoşunları Azərbaycanı, eləcə də Naxçıvanı tərk etməli oldu.

Naxçıvanlılar bu diyarı erməni işğalından qorumaq üçün 1918-ci il noyabrın 18-də Araz-Türk Cümhuriyyəti adlı respublika yaratdılar. Əmir bəy Nərimanbəyovun rəhbərlik etdiyi hökumətin tərkibi 6 üzvdən ibarət idi. Mehridən başlamış Sərdarabada qədər olan 8,7 min kvadratkilometr respublikanın ərazisi idi. Bu cümhuriyyətin yaradılmasında başlıca məqsəd bölgənin erməni işğalı altına düşməsinə imkan verməmək idi. Qısa müddətdə 20 tabordan, 500 nəfərlik süvari alaydan ibarət hərbi qüvvələr yaradılmışdı. Respublika əhalisinin öz müstəqilliyini qorumaq əzmi o qədər böyük idi ki, doğma ocaq və torpaqları müdafiə edən könüllü dəstələr işğalçıları təkcə darmadağın etmir, eyni zamanda İrəvanın özünü qorxuya salırdı. III Kalbalı xanın rəhbərliyi ilə 6 min nəfərlik könüllü müqavimət dəstələri erməni hərbi qüvvələrini darmadağın etmişdilər. Bunu Ermənistan Respublikasının ilk baş naziri O.Kaçaznuni 1923-cü ildəki çıxışında açıq etiraf etmişdir.

Naxçıvanın müdafiəsində Araz-Türk Cümhuriyyətinin qüvvələri ilə yanaşı, Cəfərqulu xan, Rəhim xan, III Kalbalı xan, Kərim xan, Bəhram xan və yerli ziyalıların çox böyük xidmətləri olmuşdur.



İngilislər və amerikalılar Naxçıvanı erməni "idarəçiliyinə" vermək üçün çox canfəşanlıq göstərdilər. Lakin Azərbaycan Xalq Cümhuriyyəti, Müsəlman Milli Şurası və Naxçıvan əhalisi buna imkan vermədilər.

Araz-Türk Cümhuriyyətinin süqutundan sonra Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvan general-qubernatorluğunu yaratdı. İlk əvvəl general-qubernator Bəhram xan Naxçıvanski, sonra isə Səməd bəy Cəmillinski oldu.

1920-ci ilin aprelində Azərbaycanda bolşevik hakimiyyəti yarandı. Naxçıvanda Sovet hakimiyyəti iyulun 28-də elan edildi və Hərbi İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan Hərbi İnqilab Komitəsinin sədri M.Bektaşov Azərbaycan SSR XKS-nin sədri Nəriman Nərimanova belə bir məktubla müraciət etdi: *"Naxçıvan xalqının böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi hesab edir".*

Naxçıvanın azərbaycanlı əhalisinin qətiyyətli mövqeyi və mübarizəsi ermənilərin Naxçıvanla bağlı planlarını pozdu. Bu işdə iri dövlətlər də onlara kömək göstərə bilmədilər. Məkrli niyyətlərini həlelik pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu diyar ilə əlaqədar iddialarından imtina etmişdir.

Naxçıvan diyarının əhalisi özlərini Azərbaycandan ayrı təsəvvür etmirdilər. Onlar hələ o vaxt öz qəti fikirlərini belə ifadə etmişdilər: *"Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz".* N.Nərimanov və onun yaxın silahdaşlarının qəti mövqeyi və prinsipiallığı sayəsində Naxçıvanı Ermənistana birləşdirmək cəhdi baş tutmadı. 1921-ci ilin yanvarında keçirilən rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizi diyarın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasında B.Şahtaxtinskinin də böyük əməyi və tarixi xidmətləri olmuşdur. O Leninə göndərdiyi məktub, teleqram və arayışlarda Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Beləliklə, referendumun nəticəsi, B.Şahtaxtinskinin təklifi, Türkiyə tərəfinin ədalətli yanaşması ilə Naxçıvan üzərində Azərbaycanın suverenliyinin təmin edilməsi və Naxçıvanın Azərbaycanın tərkibində qalması ilə nəticələndi. 1921-ci il martın 16-da Siyasi Büro Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul etdi və həmin gün imzalanan Moskva müqaviləsinin 3-cü maddəsində də bu cəhət öz əksini tapdı: *"Naxçıvan vilayəti bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir".*

1921-ci il oktyabrın 13-də Azərbaycan, Gürcüstan, Ermənistan SSR ilə Türkiyə arasında Rusiya nümayəndəsinin iştirakı ilə imzalanan Qars müqaviləsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi və onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Moskva müqaviləsindən fərqli olaraq Qars müqaviləsinin V maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdir – bunlar Türkiyə, Azərbaycan, Ermənistan hökumətləri idi.

1921-ci ildən 1924-cü ilədək, yəni muxtariyyət statusundan muxtar respublikanın təşkilinə kimi çoxsaylı müzakirələr getmişdi. Bu müzakirələrdə bir məsələ aydın idi ki, Azərbaycanın daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə bağlı idi. Naxçıvanın Azərbaycandan aralı düşməsi, heç bir sərhədə malik olmaması onun inzibati idarəçiliyini qəza və ya rayon hüquqlarında təşkil etməyə

*Ardı 4-cü səhifədə*

imkan vermirdi. 1923-cü il iyunun 16-da Naxçıvan muxtar diyar adlandırıldı. 1924-cü il fevralın 9-da Azərbaycan MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında dekret qəbul etdi.

Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində təsdiq edilmiş Əsasnamə və 1926-cı il aprelin 18-də qəbul olunmuş Naxçıvan MSSR-in birinci Konstitusiyası və sonrakı konstitusiyalarla təsbit edildi.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə – 1992-ci ilin mart və avqust aylarında Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirmişdir. Dahi rəhbər dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməklə, Naxçıvanın muxtariyyət statusuna ikinci həyat bəxş etməklə Ermənistanın ilk və ən böyük beynəlxalq siyasi məğlubiyyətə uğramasına nail olmuşdur.

Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu oldu. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: *"Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir..."*

Azərbaycan Respublikasının Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası hazırlandı və 1998-ci il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi. Konstitusiyanın birinci maddəsində göstərilir: *"Naxçıvan muxtar dövləti Azərbaycan Respublikasının tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır... Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir"*.

Ulu öndər Naxçıvanın muxtariyyət statusu əldə etməsinin tarixi əhəmiyyətini və bu sahədə beynəlxalq müqavilələrin rolunu qiymətləndirərək demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün, xüsusən Moskva müqaviləsinin və Qars müqaviləsinin burada böyük əhəmiyyəti vardır. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Naxçıvanın muxtariyyət statusunun ölkəmizin müstəqillik tarixində mühüm əhəmiyyətə malik olduğunu bildirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm mərhələ təşkil etmişdir. Bu status imkan verirdi ki, ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdəki siyasi fəaliyyəti dövründə Naxçıvan xalqımızın suveren hüquqlarının təmin edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilsin".***

Ümummilli lider, qüdrətli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvan Muxtar Respublikası ilə bağlı sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib olan digər məsələlərin həyata keçirilməsi muxtar respublikanın hərtərəfli inkişafı üçün zəmin yaratmış və təmin etmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ulu öndər Naxçıvan Muxtar Respublikasını inkişaf etmiş bir diyar kimi görmək istəyirdi. Bununla əlaqədar Prezident cənab İlham Əliyev demişdir: ***"Ulu öndər Heydər Əliyev həmişə Naxçıvana böyük diqqətlə yanaşırdı, problemlərin həlli üçün müvafiq göstərişlər verirdi və böyük qayğı göstərirdi. Mən də bu siyasəti davam etdirirəm..."***

1995-ci ildən Naxçıvan Muxtar Respublikasına cənab Vasif Talıbov rəhbərlik edir. Son 25 ildə Naxçıvan Muxtar Respublikası blokada şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, hərtərəfli, dinamik və dayanıqlı inkişafa nail olmuşdur. Ali Məclis Sədrinin məqsədyönlü fəaliyyəti, qətiyyətli mövqeyi, yüksək idarəetmə bacarığı, Heydər Əliyev siyasətinə sədaqəti Naxçıvanın uğurlu inkişafını təmin etmişdir. Naxçıvan Muxtar Respublikası müdafiə, enerji və ərzaq təhlükəsizliyini təmin etməklə yanaşı, gözəl bir diyara çevrilmişdir. Sənaye, nəqliyyat, rabitə, kənd təsərrüfatı, elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə elə böyük nailiyyətlər qazanılmışdır ki, əvvəllər bunlar ancaq arzu edilə bilərdi. Naxçıvan Muxtar Respublikası abad, səliqəli, gözəl bir diyara çevrilmiş, yollar abadlaşdırılmış, 2 min kilometrə qədər yeni asfalt yollar çəkilmiş, Heydər Əliyev Beynəlxalq Hava Limanı yaradılmış, 2 uçuş-enmə zolağı salınmış, 15 ildən artıqdır ki, muxtar respublikanın ərazisi tamamilə qazlaşdırılmış, elektrik enerjisinin generalizasiya gücü 220 meqavata çatdırılmış, bunun böyük bir hissəsi alternativ və bərpaolunan enerji hesabına təmin edilmişdir. Naxçıvan enerji idxal edən respublikadan enerji ixrac edən diyara çevrilmişdir.

Yüksək dövlət qayğısı strategiyası işığında Naxçıvan böyük sürətlə, hərtərəfli şəkildə inkişaf edərək ölkəmizin ən inkişaf etmiş regionlarından biri səviyyəsinə çatmışdır. Təsadüfi deyildir ki, muxtar respublika Azərbaycanın regionları arasında 2017 və 2018-ci illərdə 18 parametr üzrə lider region səviyyəsinə yüksəlmişdir.

Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsul istehsalı 2,9 milyard manatı ötmüş, 2019-cu illə müqayisədə 2020-ci ildə sənaye məhsulu 1,4, əsas kapitala yönəldilən vəsaitlər 1,1, kənd təsərrüfatı məhsulu 4,6, informasiya və rabitə xidmətləri 5,2 faiz artmışdır. 2020-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 510 milyon 547 min ABŞ dolları təşkil etmişdir.

Tarixin heç bir dövründə Naxçıvan indiki qədər güclü və abad olmamışdır. Muxtar respublikada ardıcıl olaraq həyata keçirilən möhtəşəm quruculuq prosesləri müstəqil Azərbaycanın yeni Naxçıvanını yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfərlərində burada görülmüş işlərdən razı qaldığını dəfələrlə bildirmişdir: ***"...Doğrudan da son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanır. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***

*Beləliklə, Naxçıvanın muxtar respublika statusu qazanması və 97 illik inkişafı onun siyasi cəhətdən formalaşmasına, iqtisadi cəhətdən yüksək inkişaf səviyyəsinə çatmasına gətirib çıxarmışdır. Ona görə də bu status qorunmalı və inkişaf etdirilməlidir.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin yanvar ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 4788 | 354,3 | 354,3 | 100,0 |
| 2. | Şərur rayonu | 2580 | 182,4 | 182,4 | 100,0 |
| 3. | Babək rayonu | 1709 | 122,3 | 122,3 | 100,0 |
| 4. | Ordubad rayonu | 1176 | 83,4 | 83,4 | 100,0 |
| 5. | Culfa rayonu | 1098 | 78,7 | 78,7 | 100,0 |
| 6. | Kəngərli rayonu | 606 | 44,0 | 44,0 | 100,0 |
| 7. | Şahbuz rayonu | 459 | 33,5 | 33,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 242 | 17,2 | 17,2 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14301 | 1287,1 | 1268,9 | 98,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **26959** | **2202,9** | **2184,7** | **99,2** |

**Qeyd:** Yanvar ayından texniki itki nəzərə alınmaqla daxil olan 26 milyon 959 min kilovat/saat elektrik enerjisinin dəyəri 2 milyon 202 min 900 manat olmuş, cəmi 2 milyon 184 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,2 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin yanvar ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | 608707 | 60871 | 60878 | 100,0 |
| 2. | Şahbuz rayonu | 1265920 | 128758 | 128770 | 100,0 |
| 3. | Naxçıvan şəhəri | 7742600 | 780731 | 780796 | 100,0 |
| 4. | Ordubad rayonu | 2410880 | 241546 | 241564 | 100,0 |
| 5. | Şərur rayonu | 4526910 | 452691 | 452711 | 100,0 |
| 6. | Kəngərli rayonu | 1921200 | 192120 | 192124 | 100,0 |
| 7. | Babək rayonu | 4985500 | 498879 | 498882 | 100,0 |
| 8. | Culfa rayonu | 2372580 | 237258 | 237257 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 15791670 | 2709298 | 2597695 | 95,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **41625967** | **5302152** | **5190677** | **97,9** |

## Muxtariyyət tarixinə həsr olunmuş konfranslar keçirilib

***AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 97-ci ildönümünə həsr olunmuş "Naxçıvanın muxtariyyəti: dünən və bu gün" mövzusunda elmi konfrans keçirilib.***



Bölmənin sədri, akademik İsmayıl Hacıyev konfransı giriş sözü ilə açaraq Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycanın tarixində böyük əhəmiyyət kəsb etdiyini və xalqımızın həyatında əlamətdar hadisə olduğunu bildirib. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının keçdiyi çox mürəkkəb tarixi inkişaf yoluna nəzər salan alim muxtariyyət statusunun qazanıldığı ərəfədə bölgədə mövcud olan ağır siyasi vəziyyətdən danışıb.

Çıxışında Moskva və Qars müqavilələrini xatırladan İsmayıl Hacıyev bildirib ki, Naxçıvan Muxtar Respublikasının statusu Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra qəbul edilmiş yeni Konstitusiyada dəqiq şəkildə müəyyən edilmişdir. Müstəqillik illərində çətinliklərlə qarşılaşan, erməni basqınları ilə üzləşən Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qorunmuş və hərtərəfli inkişafı təmin edilmişdir. 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən cənab Vasif Talıbovun Heydər Əliyev siyasi kursunu uğurla davam etdirdiyini söyləyən akademik 25 il ərzində muxtar respublikada həyata keçirilən məqsədyönlü addımlardan bəhs edib. Muxtar respublikanın beynəlxalq arenada tanındığını, bir sıra ölkələrlə iqtisadi, mədəni əlaqələrin yaradıldığını, ərazi, qida və enerji təhlükəsizliyinin tam təmin olunduğunu konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Konfransda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun, həmin institutun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin və kiçik elmi işçi Nilufər Ağayevanın məruzələri dinlənilib.

* * *



Naxçıvan Dövlət Universitetində "Naxçıvan muxtariyyətinin beynəlxalq tarixi əhəmiyyəti" mövzusunda keçirilən elmi-nəzəri konfransı giriş sözü ilə universitetin rektoru, dosent Elbrus İsayev açıb. Rektor Naxçıvanın muxtariyyət tarixindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il fevralın 8-də imzaladığı "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" Sərəncamın əhəmiyyətindən bəhs edib.

Diqqətə çatdırılıb ki, Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir.

Tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərov "Unitar dövlətlərdə muxtariyyətlər və Naxçıvan Muxtar Respublikası" mövzusunda çıxışında diqqətə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin edib, onu çiçəklənən diyara çevirib.

Konfransda Beynəlxalq münasibətlər kafedrasının dosenti Şamxal Məmmədov, Fəlsəfə və sosial iş kafedrasının baş müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Bağır Babayev çıxış ediblər.

**Xəbərlər şöbəsi**

***Bildiriş***

"Naxçıvan Biznes Təlim Akademiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək "Günəş Uşaq Akademiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

***İtmişdir***

Şərur rayonunun Çomaxtur kəndində yaşamış Əliyev Səfər İbrahim oğlunun adına verilmiş JN-117 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Telli Məmmədova**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 120**